# Kənd təsərrüfatı naziri EXPO 2016 Antalya Beynəlxalq Bağçılıq Sərgisində iştirak edir

Türkiyənin Antalya şəhərində EXPO 2016 Beynəlxalq Bağçılıq Sərgisi keçirilir.

Kənd Təsərrüfatı Nazirliyindən verilən məlumata görə, kənd təsərrüfatı naziri Heydər Əsədov Türkiyə Respublikasının qida, kənd təsərrüfatı və heyvandarlıq naziri Faruk Çeliyin dəvəti ilə EXPO 2016 Antalya Beynəlxalq Bağçılıq Sərgisində iştirak etmək məqsədi ilə Türkiyə Respublikasına səfərə gedib. Səfər çərçivəsində nazir Heydər Əsədovun həmkarı Faruk Çeliklə, sərgidə iştirak edəcək digər dövlətlərin kənd təsərrüfatı nazirləri ilə görüşəcəyi, ölkəmizlə mümkün əməkdaşlıq imkanlarını müzakirə edəcəyi, Türkiyənin aqrar sahədəki potensialı ilə yaxından tanış olacağı nəzərdə tutulub.

Qeyd edək ki, sözügedən sərgidə Azərbaycan pavilyonu 2.000 kvadratmetrə yaxın sahəni əhatə edir.

***AZƏRTAC***